INGO OING

CONFERENCE OF INGOs
OF THE COUNCIL OF EUROPE

CONFERENCE DES OING DU
CONSEIL DE L'EUROPE

**CONF/PLE(2009)CODE1**

# QƏRARLARIN QƏBUL EDİLMƏSİ PROSESİNDƏ VƏTƏNDAŞ İŞTİRAKÇILIĞI ÜZRƏ QABAQCIL TƏCRÜBƏ KODEKSİ

**İNGOs (beynəlxalq qeyri-hökumət təşkilatları) Konfransı tərəfindən 1 oktyabr 2009-cu il tarixində keçirilmiş yığıncaqda qəbul edilmişdir**

**Mündəricat**

I. Giriş ....................................................................................................................3
II. Məqsədlər və Hədəflər.....................................................................................4
III. Vətəndaş İştirakçılığı üzrə Ümumi Çərçivə .....................................................5
IV. İştirakçılığın həyata keçirilməsi barədə............................................................7
V. Vətəndaş İştirakçılığı Matrisi...........................................................................16

## I. Giriş

Müasir demokratiyaları narahat edən əsas məsələlərdən biri də vətəndaşların siyasi proseslərdən kənarda qalmasıdır. Digərlərində olduğu kimi, bu kontekstdə də vətəndaş cəmiyyəti demokratik prosesin vacib bir elementini təşkil edir. Vətəndaş cəmiyyəti vətəndaşlar üçün qərarların qəbul edilməsi prosesində fərqli baxışların istiqamətləndirilməsinin və müxtəlif maraqların təmin edilməsinin, siyasi partiyalar və lobbilərlə yanaşı, alternativ yoludur.

Avropa Şurası Nazirlər Komitəsi 2007-ci ilin oktyabr ayında qəbul etdiyi (2007)14 saylı Tövsiyəsində "QHT-lərin demokratiyanın və insan hüquqlarının inkişafı və həyata keçirilməsi baxımından, o cümlədən ictimai maarifləndirmə, ictimai həyatda iştirakçılığın təşviqi və dövlət orqanlarının şəffaflığının və hesabatlılığının təmin edilməsi yolu ilə əhəmiyyətli rol oynadığını" tanımışdır.

2007-ci ilin iyununda İsveçdə keçirilmiş, Avropa Şurasının Demokratiyanın Gələcəyinə dair Forumunun iştirakçıları qərarların qəbul edilməsi proseslərində QHT-lərin iştirakı və vətəndaş cəmiyyətinin ictimai siyasi işlərə cəlb olunması mexanizmləri kimi məsələləri əhatə edən Vətəndaş İştirakçılığı üzrə Qabaqcıl Təcrübə Kodeksinin hazırlanması üçün Avropa Şurası İNGO Konfransını çağırmışdır.

Beləliklə də, İNGO Konfransı Qərarların Qəbul Edilməsi Prosesində Vətəndaş İştirakçılığı üzrə Qabaqcıl Təcrübə Kodeksinin layihəsini hazırlamaq işini öz üzərinə götürmək üçün yaradılmışdır. Bu sənəd vətəndaş iştirakçılığının artırılmasının əsaslarını, çərçivəsini və yollarını müəyyən edir. Sənəd təcrübəli vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən hazırlanmış, Avropa üzrə məsləhətləşmə proseslərindən keçmiş, milli və beynəlxalq qeyri-hökumət təşkilatlarının (QHT-lər) üzvləri tərəfindən sınaqdan keçirilmiş və şərh edilmiş və artıq fəallar və hakimiyyət nümayəndələri tərəfindən istifadə olunmaqdadır.

Avropa Şurası İNGO Konfransı qərar qəbul edənlər və təşkilatlanmış vətəndaş cəmiyyəti, o cümlədən QHT-lər üçün nəzərdə tutulmuş istifadə edilməsi asan olan, strukturlu və praqmatik bir material hazırlamışdır.

Kodeks qabaqcıl təcrübələr toplusundan ibarətdir. Kodeks məcburi xarakterli deyil və orada heç bir qayda, yaxud məcburi icra mexanizmləri yoxdur. Sənəd demokratik prosesin bütün iştirakçıları üçün QHT-lər və hakimiyyət orqanları arasında dialoq və əməkdaşlıq üzrə konkret praktiki nümunələrə əsaslanan təlimatlar verir. Sənədin əsas məqsədi QHT-lər və dövlət orqanlarının qarşılıqlı fəaliyyətini asanlaşdırmaqdan və vətəndaşların yerli, regional və milli səviyyələrdə demokratik prosesdə iştirak etmək imkanlarının və iştirakçılığının genişləndirilməsindən ibarətdir.

Konfrans Avropa Şurasının digər institutlarının məsləhət və töhfələrindən də bəhrələnmişdir. Həm Yerli və Regional Hakimiyyətlər Konqresi, həm də Avropa Şurası Parlament Assambleyası Qabaqcıl Təcrübə Kodeksinin qəbul edilməsini yaxşı qarşılamışdır. Konqres kodeksin təşviqinə töhfə verməyə və öz işində tətbiq etməyə hazır olduğunu bildirmiş, Parlament Assambleyası da öz növbəsində bu cür elektron alətlərin iştirakçılıq baxımından xüsusi vacibliyini vurğulamışdır.

Bu sənəd siyasi nəticələri də olmalıdır və olacaqdır. Belə ki, sənəd demokratik idarəetmədə müasir üsullardan istifadə edilməsi və eyni zamanda, vətəndaşların ictimai həyatda iştirakçılığının daha da dərinləşdirilməsi baxımından yerli, regional və milli hakimiyyət

orqanlarının vətəndaş cəmiyyəti ilə məsləhətləşməsinə və əməkdaşlığının mövcud vəziyyətinə təsir edəcək və dəstək olacaqdır.

## II. Məqsədlər və hədəflər

Vətəndaş İştirakçılığı üzrə bu Qabaqcıl Təcrübə Kodeksinin əsas məqsədi siyasi qərarların qəbul edilməsi prosesində vətəndaş iştirakçılığı ilə bağlı Avropa səviyyəsində ümumi prinsipləri, təlimatları, vasitələri və mexanizmləri müəyyən etməklə Avropa Şurasına üzv Dövlətlərdə və Belarusda QHT-lər üçün əlverişli mühitin yaradılmasına töhfə verməkdən ibarətdir. Niyyət isə Qabaqcıl Təcrübə Kodeksinin yerli, regional və milli səviyyədə tətbiq edilməsindən ibarətdir. Qabaqcıl Təcrübə Kodeksi bütün Avropa boyunca özlərinin dövlət orqanları ilə əməkdaşlıq üzrə qabaqcıl təcrübələrini və yararlı metodlarını bölüşən QHT-lərin həqiqi təcrübələrinə əsaslanır.

Qabaqcıl Təcrübə Kodeksinin daha bir məqsədi də yerli və beynəlxalq səviyyələrdə olan QHT-lərin parlamentlər, hökumətlər və dövlət orqanları ilə dialoqa girə bilməsi üçün münasib və səmərəli bir alət olmaqdan ibarətdir. Bu baxımdan bütün Avropa üzrə həm QHT-lər, həm də dövlət orqanları üçün faydalı interaktiv və praktiki bir alət olmaq məqsədi güdülür. Qabaqcıl Təcrübə Kodeksinin tətbiq edilməsinə dəstək verilməsinin bir yolu kimi kazuslardan ibarət bir toplu və əlavə olaraq praktiki vasitələr toplusu da olacaqdır.

Qabaqcıl Təcrübə Kodeksi Avropa Şurasına üzv Dövlətlərdə və Belarusda mövcud olan milli QHT-lər, o cümlədən regional və yerli təşkilatlar, həmçinin Avropa və beynəlxalq səviyyəli təşkilatlar üçün nəzərdə tutulmuşdur.

Sənəd həmçinin parlament, hökumət və yerli, regional və milli əhəmiyyətli inzibati orqanlar da daxil olmaqla dövlət orqanları üçün hazırlanmışdır. Bu mənada Qabaqcıl Təcrübə Kodeksinin hədəfi çox geniş olsa da, sənədin elə bölmələri var ki, onlar dövlət administrasiyasının bütün səviyyələrində istifadə oluna bilər.

## III. Vətəndaş İştirakçılığı üzrə Ümumi Çərçivə

### III.i Vətəndaş Cəmiyyətinin Parametrləri

QHT-lər və təşkilatlanmış vətəndaş cəmiyyəti demokratiyanın və insan hüquqlarının inkişafı və həyata keçirilməsi baxımından əhəmiyyətli rol oynayır. Nazirlər Komitəsinin (2007) 14 saylı Tövsiyəsində Avropa Şurası tərəfindən QHT-yə anlayış verilir və qeyd olunur ki, "QHT-lər təsisçilərinin və ya üzvlərinin əsasən gəlir əldə etməkdən ibarət olmayan məqsədlərinə nail olmaq üçün təsis olunmuş könüllü özünüidarə orqanları və ya təşkilatlardır." Vətəndaş İştirakçılığı üzrə bu Qabaqcıl Təcrübə Kodeksi baxımından isə bu anlayış təşkilatlanmış vətəndaş cəmiyyətinə, o cümlədən könüllülərdən ibarət qruplara, qeyri-kommersiya təşkilatlarına, assosiasiyalara, fondlara, xeyriyyə təşkilatlarına, həmçinin coğrafi əsaslarla və ya ortaq mənafelər əsasında yaradılmış icma və müdafiə qruplarına şamil edilir. QHT-lərin əsas fəaliyyəti sosial ədalət, insan hüquqları, demokratiya və hüququn aliliyi kimi dəyərlərə əsaslanır. Bu sahələr üzrə QHT-lərin məqsədi həmin dəyərlərin təbliğindən və insanların həyatının yaxşılaşdırılmasından ibarətdir.

QHT-lər çox sayda insanları cəlb etməklə açıq, demokratik cəmiyyətdə iştirakçılığın vacib bir komponentini təşkil edir. Bu insanlardan xeylisinin həm də seçici olması o deməkdir ki, QHT-lər nümayəndəli demokratiya üçün də tamamlayıcı əhəmiyyətə malikdir.

QHT-lər qərarların qəbul edilməsi prosesi üçün bilik və müstəqil peşəkarların cəlb edilməsi vasitəsilə faydalı ola bilər ki, bu da siyasətin formalaşdırılmasında və həyata keçirilməsində yerli, regional və milli səviyyələrdə bütün hakimiyyət orqanlarının, həmçinin beynəlxalq təsisatların köməklik üçün QHT-lərin müvafiq təcrübə və potensialına müraciət etməsinə gətirib çıxarmışdır. QHT-lərin üzvləri və cəmiyyət onları narahat edən məsələlərin qaldırılması, onların maraqlarının təmsil olunması və onların məsələlərin həllinə cəlb olunması ilə bağlı QHT-lərə güvənirlər ki, bu da siyasətin formalaşdırılmasına olduqca əhəmiyyətli töhfə verir.

Bu materialda vətəndaş iştirakçılığı ilə əlaqəli məsələlərin, yəni fərdlərin deyil, təşkilatlanmış vətəndaş cəmiyyətinin demokratik prosesə verdiyi töhfə vurğulanır. Bu baxımdan, assosiasiyaların və icma təşkilatlarının formalaşdırılması fəaliyyəti dedikdə, sadəcə fərdi fəaliyyət deyil, müstəqil sosial təşkilat fəaliyyəti başa düşülür. Bu o deməkdir ki, təşkil olunmuş qruplar öz üzvlərinin ehtiyaclarını təmin etmək və daha geniş ictimaiyyətin faydası üçün mövcuddur, və buna görə də, onlar vətəndaşların iştirakçılığını yönləndirən və artıran əsas kanal kimi çıxış edir.

### III.ii Vətəndaş İştirakçılığının Prinsipləri

Konstruktiv münasibətlərin gücləndirilməsi üçün, QHT-lər və müxtəlif səviyyələrdən olan dövlət orqanları aşağıdakı ümumi prinsiplər əsasında fəaliyyət göstərməlidir:

#### İştirak

QHT-lər öz üzvlərinin, istifadəçi qruplarının və əlaqəli vətəndaşların fikirlərini toplayır və yönləndirir. Bu, siyasi qərarların qəbul edilməsi prosesi, siyasi təşəbbüslərin keyfiyyətinin, başa düşülməsinin və daha uzun müddətli tətbiqinin artırılması baxımından çox böyük əhəmiyyət kəsb edir. Bu prinsip üçün ön şərt odur ki, proseslər iştirak etmək üçün açıq və əlçatandır və iştirakçılığın razılaşdırılmış parametrlərinə əsaslanır.

**Etimad**
Açıq və demokratik cəmiyyət subyektlər və sektorlar arasında dürüst qarşılıqlı fəaliyyətə əsaslanır. QHT-lərin və dövlət orqanlarının oynadıqları rolların fərqli olmasına baxmayaraq, insanların həyatının yaxşılaşdırılması kimi ortaq məqsədə yalnız etimad, yəni şəffaflıq, hörmət və qarşılıqlı etibar əsasında nail olmaq olar.

**Hesabatlılıq və şəffaflıq**
İctimai mənafe naminə fəaliyyət göstərmək həm QHT-lərdən, həm də dövlət orqanlarından bütün mərhələlərdə şəffaf şəkildə açıqlıq, cavabdehlik, aydınlıq və hesabatlılıq tələb edir.

**Müstəqillik**
QHT-lər öz məqsədləri, qərarları və fəaliyyətləri baxımından azad və müstəqil qurumlar kimi tanınmalıdır. Onların müstəqil şəkildə fəaliyyət göstərmək və ziddiyyət olmadığı halda əməkdaşlıq edə biləcəkləri dövlət orqanlarının mövqelərindən fərqli mövqedə olmaq və həmin mövqeləri müdafiə etmək hüququ vardır.

### III.iii Vətəndaş İştirakçılığının Şərtləri

Assosiasiyaların fəaliyyətinə imkan verən şərtlər sənədlərlə müəyyən olunur. İnsan Hüquqları və Əsas Azadlıqlar haqqında Avropa Konvensiyasına (AİHK) və Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedent hüququna uyğun olaraq, Vətəndaş İştirakçılığının şərtləri üçün ifadə azadlığının (AİHK-nın 10-cu Maddəsi) və toplaşmaq və birləşmək azadlığının olması tələb olunur.

Siyasi qərarların qəbul edilməsi prosesində heç bir ayrı-seçkilik olmadan QHT-lərin əhəmiyyətli töhfələrinin də öz əksini tapmasını təmin etmək üçün, əlverişli mühitin olması tələb olunur. Bu cür əlverişli mühitə isə hüququn aliliyi, fundamental demokratik prinsiplərə əməl olunması, siyasi iradə, əlverişli qanunvericilik, aydın və dəqiq prosedurlar, dayanıqlı vətəndaş cəmiyyəti üçün uzunmüddətli dəstək və resurslar və ümumi dialoq və əməkdaşlıq sahələrinin olmasından ibarətdir. Bu şərtlər *iştirakçı demokratiya* uğrunda QHT-lər və dövlət orqanları arasında qarşılıqlı etimad və anlaşmaya əsaslanan konstruktiv münasibətlərin yaranmasına imkan verir.

## IV. İştirakçılığın həyata keçirilməsi barədə

Vətəndaş İştirakçılığı üzrə bu Qabaqcıl Təcrübə Kodeksinin prinsipial siyasi məqsədinə cavab vermək, həmçinin QHT-lərin siyasi qərarların qəbul edilməsi prosesində iştirakı baxımından sənədin onlar üçün münasib və praktiki olaraq tətbiq edilə bilən olmasını təmin etmək üçün bu bölmədə vətəndaş cəmiyyətinin necə iştirak edə bilməsi göstərilir.

Bu prosesdə bir-biri ilə qarşılıqlı şəkildə əlaqəli olan iki ölçü var. Birincisi, sənədin IV.i bəndində təsvir olunan və QHT-lərlə dövlət orqanları arasında sadə məlumat mübadiləsindən başlayaraq məsləhətləşmə, dialoq və tərəfdaşlığadək olan və iştirakçılığın intensivliyinin artdığı qaydada təsnif olunan iştirakçılıq səviyyələridir. İkincisi isə, siyasi qərarların qəbul edilməsi prosesinin, sənədin IV.ii bəndində göstərilən mərhələləri, daha dəqiq desək, gündəliyin müəyyən olunmasından qərarların icrasına, monitorinqə və yenidən işlənməyə qədər dövlət orqanları tərəfindən atılan altı addımdır.

Ayrıca bir bənd (IV.iii) də istənilən mərhələdə tətbiq oluna bilən və iştirakçılıq prosesinə hərtərəfli dəstək verən alətlərə həsr olunur.

Daha sonra isə bu elementlər birləşdirilir və vətəndaş iştirakçılığı matrisi hazırlanır ki, bunun da səyəsində prosesin mahiyyəti daha aydın şəkildə təqdim olunur.

### IV.i İştirakçılığın müxtəlif səviyyələri

QHT-lərin siyasi qərarların qəbul edilməsi prosesinin müxtəlif səviyyələrində iştirakı onların iştirakçılığının intensivliyindən asılı olaraq müxtəlif olur. Belə ki, iştirakçılığın ən az iştirakçılıqdan başlayaraq ən çox iştirakçılığa qədər dörd tədrici səviyyəsi vardır. Bu səviyyələr məlumat; məsləhətləşmə; dialoq; və tərəfdaşlıqdan ibarətdir. Onlar qərarların qəbul edilməsi prosesinin istənilən mərhələsində tətbiq oluna bilsə də, çox vaxt hər səviyyə xüsusi olaraq prosesin müəyyən məqamlarına aid olur.



**1. Məlumat**
Məlumatlara çatımlılıq siyasi qərarların qəbul edilməsi prosesinin bütün növbəti mərhələlərində QHT-lərin iştirakının əsasını təşkil edir. Bu, adətən dövlət orqanları tərəfindən məlumatların birtərəfli şəkildə verilməsindən ibarət olmaqla iştirakçılığın nisbətən aşağı səviyyəsi hesab edilir və bu səviyyədə QHT-lərlə heç bir qarşılıqlı fəaliyyət və ya birgə iştirakçılıq tələb olunmur və ya gözlənilmir.

Məlumatların verilməsi qərarların qəbul edilməsi prosesinin bütün mərhələləri üçün aktualdır.

**2. Məsləhətləşmə**
Bu səviyyədə dövlət orqanları ayrı-ayrı siyasi mövzular və ya siyasətin formalaşdırılması ilə bağlı QHT-lərdən onların rəyini soruşur. Məsləhətləşmə adətən dövlət orqanlarının cari vəziyyətlə bağlı QHT-lərə məlumat verməsindən və onlardan bununla bağlı öz şərhlərini, fikirlərini və reaksiyalarını verməyi xahiş etməsindən ibarət olur. Təşəbbüs və mövzular bir qayda olaraq QHT-lərdən deyil, dövlət orqanlarından gəlir.

Məsləhətləşmə qərarların qəbul edilməsi prosesinin bütün mərhələləri, xüsusilə də layihənin hazırlanması, monitorinq və yenidən işlənmə mərhələləri üçün aktualdır.

**3. Dialoq**
Dialoq təşəbbüsü hər iki tərəfdən gələ bilər və **geniş** və ya **əməkdaşlıq xarakterli** ola bilər.

Geniş dialoq qarşılıqlı maraqlar və ortaq məqsədlər əsasında qurulmuş və müntəzəm fikir mübadiləsinin həyata keçirilməsini təmin edən ikitərəfli ünsiyyətdir. Dialoqun açıq ictimai dinləmələrdən tutmuş QHT-lər və dövlət orqanları arasında xüsusi görüşlərə qədər olan formaları vardır. Müzakirələrin əhatə dairəsi geniş olur və yalnız cari siyasətin formalaşdırılması prosesi ilə məhdudlaşmır.

Əməkdaşlıq xarakterli dialoq hansısa xüsusi siyasətin formalaşdırılması üçün qarşılıqlı maraqlar əsasında qurulur. Əməkdaşlıq xarakterli dialoq adətən birgə tövsiyə, strategiya və ya qanunvericiliyin qəbul edilməsi ilə nəticələnir. Əməkdaşlıq xarakterli dialoq geniş dialoqdan daha səmərəlidir, çünki əsas siyasi strategiyaların hazırlanması üçün tez-tez və müntəzəm şəkildə keçirilən birgə görüşlərdən ibarətdir və çox vaxt razılaşdırılmış nəticələrin əldə olunmasına gətirib çıxarır.

Dialoq siyasi qərarların qəbul edilməsi prosesinin bütün mərhələləri üçün yüksək dəyərləndirilir, lakin gündəliyin müəyyən olunması, layihənin hazırlanması və yenidən işlənmə mərhələləri üçün həlledici əhəmiyyət kəsb edir.

**4. Tərəfdaşlıq**
Tərəfdaşlıq dedikdə gündəliyin müəyyən olunmasından başlayaraq siyasi təşəbbüslər üzrə layihələrin hazırlanmasına, qərarın qəbul edilməsinə və icra olunmasınadək siyasi qərarların qəbul edilməsi prosesinin hər bir mərhələsində ortaq cavabdehliklərin olması nəzərdə tutulur. Tərəfdaşlıq siyasi iştirakçılığın ən yüksək səviyyəsi hesab olunur.

Bu səviyyədə QHT-lər və dövlət orqanları bir araya gələrək yaxından əməkdaşlıq etsə də, QHT-lərin müstəqil olmaqda davam etməsi və tərəfdaşlıq vəziyyətindən asılı olmayaraq kampaniya aparmaq və müstəqil fəaliyyət göstərmək hüququnun olması təmin edilməlidir.

Tərəfdaşlıq hansısa xüsusi tapşırığın, misal üçün, hansısa xidmətlərin göstərilməsinin QHT-lərə həvalə edilməsi, forumların keçirilməsi və resursların sərf edilməsi ilə bağlı qərarların qəbul edilməsi də daxil olmaqla birgə qərarların qəbul edilməsi üçün orqanların yaradılması kimi fəaliyyətlərdən ibarət ola bilər.

Tərəfdaşlıq siyasi qərarların qəbul edilməsi prosesinin bütün mərhələlərində həyata keçirilə bilər və xüsusilə də gündəliyin müəyyən olunması və ya qərarların icrası mərhələləri üçün uyğundur.

## IV.ii Siyasi qərarların qəbul edilməsi prosesinin mərhələləri

Aşağıda təsvir olunan tsikldə siyasi qərarların qəbul edilməsi prosesinin altı müxtəlif mərhələsi, yəni gündəliyin müəyyən olunması, sənədin layihəsinin hazırlanması, qərarın qəbul edilməsi, sənədin icrası, monitorinq və sənədin yenidən işlənməsi mərhələləri göstərilir. Hər bir mərhələ QHT-lər və dövlət orqanları üçün qarşılıqlı fəaliyyət imkanları təklif edir.




### 1. Gündəliyin müəyyən olunması

Siyasi gündəlik parlament və hökumət tərəfindən razılaşdırılsa da, ayrı-ayrı məsələlər, ehtiyaclar və onları narahat edən mövzular üzrə kampaniyalar və lobbiçilik vasitəsilə QHT-lər və ya QHT qrupları tərəfindən də formalaşdırıla bilər. Yeni siyasi təşəbbüslər çox vaxt QHT-lərin apardığı kampaniyaların təsiri nəticəsində meydana çıxır. Bu mərhələ ərzində QHT-lər

kollektiv maraqları təmsil edir, qərar qəbul edənlərə təsir etmək məqsədi güdür və siyasi müzakirələrə töhfə verir.

QHT-lərin verdiyi töhfələr:

- **Təbliğat:** Ayrı-ayrı istifadəçi qrupların problemlərinin, onları narahat edən məsələlərin və onların ehtiyaclarının, qanunvericiliklə və ya digər siyasi sənədlərlə, vasitələrlə və ya tədbirlərlə nəzərdə tutulmamış ictimai əhəmiyyətli fikirlərin qaldırılması
- **Məlumatlandırma və maarifləndirmə:** QHT-lərin gəldiyi nəticələrin dövlət orqanlarına verilməsi, üzvlərin, istifadəçilərin və əsas vətəndaş qruplarının iştirakı və təmsil olunması, və vətəndaşlarla ünsiyyət, onları dinləmək, fikir bildirmək və məlumat vermək üçün kanal kimi çıxış etmək
- **Bilik və məsləhət:** hansısa spesifik mövzuda biliklərə malik olan ekspertlər siyasi gündəliyin müəyyən olunmasında əsas rol oynayırlar. Onların təhlili və araşdırması cəmiyyətin cari və gələcək ehtiyaclarını müəyyən edir və həlledici istiqamətləri göstərir
- **İnnovasiya:** yeni həll yollarının və yanaşmaların formalaşdırılması; bunların siyasi gündəliyə necə salına biləcəyinin nümayiş etdirilməsi
- **Xidmət göstərilməsi:** spesifik istifadəçi qrupu üçün siyasətin formalaşdırılmasında və alternativ, yaxud mövcud olmayan xidmətlərin formalaşdırılmasında əsas rol oynamaq

Dövlət orqanlarının cavabdehlikləri:

- **Məlumat verilməsi:** Bütün maraqlı tərəflərin əldə edə biləcəyi formada yeni və dəqiq məlumatların vaxtı-vaxtında təmin edilməsi
- **Prosedurlar:** Qərarların qəbul edilməsi prosesində şəffaflığın inkişaf etdirilməsi və ona riayət olunması. İştirakçılıq üçün aydın, açıq və əlçatan prosedurların təmin edilməsi
- **Resursların təmin edilməsi:** Büdcə ayırmaqla, digər formada maddi dəstək göstərməklə və ya inzibati xidmətlər vasitəsilə vətəndaş cəmiyyətinin fəal iştirakına şərait yaradılması
- **Cavabdehlik:** Müvafiq dövlət orqanlarının nümayəndələrinin fəal şəkildə cəlb olunmasının təmin edilməsi; dinləmək, cavab vermək və münasibət bildirmək

Faydalı alətlər və mexanizmlər:

- **Məlumat:**
    - Siyasi rposeslər, sənədlər və siyasi qərarları verənlər barədə müvafiq, dəqiq və vaxtında verilən **məlumatlara asan və açıq çatımlılıq,** misal üçün: onlayn məlumat bazaları
    - Narahat edən məsələnin nədən ibarət olduğunu başa düşmək və təklif ediləcək həll yolları hazırlamaq üçün **araşdırma**
    - QHT-lər tərəfindən siyasət sənədləri, posterlər və broşurlar, vebsaytlar, press-relizlər və ictimai nümayişlər vasitəsilə aparılan maarifləndirici **kampaniya** və **lobbiçilik**
    - Əsas sənədlərin və ictimai tədbirlər barədə elanların yerləşdirildiyi **Vebsayt**
- **Məsləhətləşmə:**
    - **Petisiya,** e-petition və ya veb-forum kimi onlayn üsullarla göndərilə bilər
    - **Məsləhət,** maraqlı tərəfləri maraqlandıran məsələlər barədə məlumat və onların təkliflərini toplamaq üçün onlayn və ya digər üsullar
- **Dialoq:**
    - Müxtəlif qruplar üçün həssas məsələlərin və maraqların müəyyən olunması və təfsiri üçün maraqlı şəxslərlə **dinləmələr və ictimai forumlar**
    - Vətəndaşlarla və QHT-lərlə müzakirələr aparmaq üçün **vətəndaş forumları və gələcək şuralar**
    - Vətəndaş cəmiyyətinin cari siyasi təşəbbüslər barədə məlumat əldə edə bilməsi üçün **hökumətlə əsas əlaqələndirici şəxs**
- **Tərəfdaşlıq:**
    - Siyasi məsələlərlə bağlı məsləhət vermək üçün daimi və ad hoc ekspert qrupu kimi yaradılan **İşçi qrup və ya komitə**

**2. Layihənin hazırlanması**

Adətən dövlət orqanlarında siyasi sənədlərin layihəsinin hazırlanmasının oturuşmuş bir prosesləri olur. Burada QHT-lər çox vaxt problemlərin müəyyən olunması, həll yollarının təklif edilməsi və öz təkliflərini əsaslandıran sübutların təqdim olunması kimi sahələr üzrə və müsahibələr və ya araşdırma vasitəsilə cəlb olunur. Bu mərhələnin ən əsas elementi məsləhətləşmə imkanlarının yaradılmasından, həmçinin əsas maraqlı tərəflərin fikirlərini əldə edə bilmək üçün müxtəlif dialoq formalarından ibarətdir.

QHT-lərin verdiyi töhfələr:

- **Təbliğat:** layihəsi hazırlanan siyasi sənədin təsirinə məruz qalan maraqlı tərəflərin ehtiyac və maraqlarının nəzərə alınmasının təmin edilməsi
- **Məlumatlandırma və maarifləndirmə:** QHT-lər üzvlərini, istifadəçiləri və əsas vətəndaş qruplarını layihənin hazırlanması prosesi barədə məlumatlandırır

- **Bilik və məsləhət:** layihədə nəzərdə tutulan məsələlər barədə təhlil və araşdırma aparılması və ya layihəyə daxil ediləcək əlavə prioritet məsələlərin qaldırılması
- **İnnovasiya:** spesifik qruplara fayda gətirəcək yeni yanaşmalar, praktiki həll yolları və konkret modellər tətbiq etmək yolu ilə məsələləri həll etmək
- **Xidmət göstərilməsi:** spesifik istifadəçilərin ehtiyaclarının nəzərə alınmasının və zəruri şərtlərə əməl olunmasının təmin edilməsi üçün siyasi sənəd layihəsinin hazırlanmasına dəstək
- **Nəzarət funksiyası:** Maraqlı tərəfləri narahat edən məsələlərin nəzərə alındığına və prosesin inklüziv və şəffaf olmasına əmin olmaq üçün layihənin hazırlanması prosesinin izlənməsi

Dövlət orqanlarının cavabdehlikləri:

- **Məlumat verilməsi:** Cari məsləhətləşmə prosesləri barədə vaxtında və ətraflı məlumat verilməsi
- **Prosedurlar:** Aydın məqsədlər, iştirak qaydaları, vaxt çərçivələri, əlaqə məlumatları və s. kimi minimal məsləhətləşmə standartlarının hazırlanması və onlara əməl olunması. Bütün potensial maraqlı tərəfləri dəvət etməklə açıq məsləhətləşmə görüşlərinin təşkil edilməsi
- **Resursların təmin edilməsi:** Müxtəlif səviyyələrdən olan vətəndaş cəmiyyətinin iştirakçılığını təmin etmək üçün adekvat məsləhətləşmə vaxtlarının və vasitələrinin ayırılması
- **Cavabdehlik:** Müvafiq dövlət orqanlarının nümayəndələrinin fəal şəkildə cəlb olunmasının təmin edilməsi; dinləmək, cavab vermək və məsləhətləşmələrə dair münasibət bildirmək

Faydalı alətlər və mexanizmlər:

- **Məlumat:**
    - **Siyasi sənədlərə açıq və azad çatımlılıq**, o cümlədən sənədlərin layihələrinin hazırlanması üçün ictimaiyyətin əldə edə bilməsi üçün müxtəlif formalarda olan məlumatların təqdim edildiyi vahid məlumat məntəqəsi
    - Əsas sənədlərin və ictimai tədbirlər barədə elanların yerləşdirildiyi **Vebsayt**
    - Mövqe sənədləri, məktublar, manifestolar vasitəsilə sənəd layihələrini formalaşdıran kampaniyalar və lobbiçilik
    - Dinləmələrin, görüşlərin və debatların insanların real vaxt rejimində onlara baxmasına və onları dinləməsinə imkan verən **internet yayımları**
    - Sənədlərin layihəsinin hazırlanması prosesinə töhfə verən **araşdırma**
- **Məsləhətləşmə və dialoq:**
    - Həssas məsələlərin və narahatlıq doğuran məsələlərin müəyyən olunması və təkliflərin toplanması üçün maraqlı tərəflər ilə keçirilən **dinləmələr və sual və cavab sessiyaları**, üzbəüz və ya onlayn
    - Layihənin hazırlanmasında istifadə oluna bilən xüsusi araşdırmanın aparılmasına cəlb olunan ekspertlərin iştirakı ilə keçirilən **ekspert seminarları və görüşləri**
    - QHT sektorunun nümayəndələrindən ibarət və ya onların da daxil olduğu çoxsaylı maraqlı tərəflərin iştirak etdiyi komitələr və məşvərətçi orqanlar; daimi və ya ad hoc ola bilər
- **Tərəfdaşlıq:**
    - **Layihənin birgə hazırlanması:** qanunvericilik prosesinin hissələrinin layihələrinin hazırlanmasında fəal iştirak

**3. Qərarın qəbul edilməsi**
Siyasi qərarların qəbul edilməsi formaları milli kontekstdən və qanunvericilikdən asılı olaraq müxtəlif olur. Ümumi cəhətlər hökumətin nazirlik tərəfindən; və ya parlamentdə səsvermə vasitəsilə qanun qəbul edilməsi kimi, qanunvericiliklə; yaxud referendumla müəyyən olunur ki, bundan da sonra ona uyğun qanunvericiliyin qəbul edilməsi tələb olunur. Qanun layihələri və təkliflər QHT-lərin töhfə və iştirakı üçün açıq olmalıdır. Dövlət orqanları qərarın qəbul edilməsindən öncə müxtəlif baxış və fikirləri dəyərləndirməlidir. Bu mərhələdə dolğun qərarın qəbul edilməsi üçün məsləhətləşmə həlledici rol oynayır. Lakin, qərarın ümumxalq səsverməsi, referendum və ya müştərək qərar qəbuletmə mexanizmi vasitəsilə qəbul edildiyi hallar istisna olmaqla, yekun seçim səlahiyyəti dövlət orqanlarına məxsusdur.

QHT-lərin verdiyi töhfələr:

- **Təbliğat:** qərar qəbul edənlərə səsvermədən əvvəl təsir etmək
- **Məlumatlandırma və maarifləndirmə:** Üzvlərin, istifadəçilərin və əsas vətəndaş qruplarının siyasi qərarlar və onların potensial təsiri barədə məlumatlandırılması
- **Bilik və məsləhət:** qərar qəbul edənləri məlumatlandırmaq və onlara təsir etmək üçün təfsilatlı təhlil aparılması
- **Nəzarət funksiyası:** qərar qəbul edilməsi prosesinin izlənməsi və prosesin demokratik, şəffaf və səmərəli olmasına əmin olmaq

Dövlət orqanlarının cavabdehlikləri:

- **Məlumat verilməsi:** Hal-hazırda qərar qəbul edilməsi prosesində olan sənədlər barədə məlumat vermək
- **Prosedurlar:** Uyğun olduqda müştərək qərar qəbul edilməsi mexanizmləri üçün prosedurların təklif edilməsi və onlara əməl olunması
- **Resursların təmin edilməsi:** QHT-ləri qərar qəbul edilməsi mərhələsinə cəlb etməklə vətəndaş cəmiyyətinin fəal iştirakına şərait yaratmaq və dəstək göstərmək
- **Cavabdehlik:** Vətəndaş cəmiyyətinin verdiyi təklifləri dinləmək, nəzərə almaq və onları cavablandırmaq

Faydalı alətlər və mexanizmlər:

- **Məlumat**:
  - Qərar qəbul edənlərə təsir etmək üçün **kampaniya və lobbiçilik**, məsələn: broşurlardan, vebsaytlardan, press-relizlərdən və ictimai nümayişlərdən istifadə edilməsi
- **Məsləhətləşmə və dialoq:**
  - Qərarların qəbul edilməsi çərçivəsində baş verən debatlara açıq şəkildə çatımlılığın təmin edilməsi üçün **açıq plenar və ya komitə sessiyaları**
- **Tərəfdaşlıq:**
  - Forumlar, kensensus konfransları və digər iştirakçı görüşlər vasitəsilə **qərarların birgə qəbul edilməsi**
  - İştirakçılıq əsasında büdcələşdirmə kimi, **qərarın müştərək şəkildə qəbul edilməsi**

**4. Qərarın icrası**
Bu mərhələ əksər QHT-lərin, misal üçün, xidmətlərin göstərilməsi və layihə icrası ilə bağlı ən çox fəal olduğu mərhələdir. Əvvəlki mərhələlərdə QHT-lər tərəfindən görülən işin çox hissəsi məhz qərarın icrasına təsir etmək cəhdlərindən ibarətdir. Bu mərhələ xüsusilə də, nəzərdə tutulan nəticəyə nail olunacağını təmin etmək üçün vacibdir. Gözləntilər və imkanlar barədə

aydın və şəffaf məlumata çatımlılıq, həmçinin fəal tərəfdaşlıqlar bu mərhələdə vacib əhəmiyyətə malikdir.

QHT-lərin verdiyi töhfələr:

- **Məlumatlandırma və maarifləndirmə:** Əsas diqqətin ictimai maarifləndirməyə, siyasi qərarların faydalarının və ya ziyanlarının və təsirinin izahına yönəldilməsi
- **Xidmət göstərilməsi:** çox vaxt əsas cavabdehliyi daşıyan, siyasi təşəbbüslərin həyata keçirilməsinin əsas subyekti
- **Nəzarət funksiyası:** qərarın nəzərdə tutulduğu kimi, heç bir zərərli yan təsirlər olmadan icra edilməsinin qiymətləndirilməsi və təmin edilməsi

Dövlət orqanlarının cavabdehlikləri:

- **Məlumat verilməsi:** Qərarların icrası üzrə strategiyalar, ictimai tender prosedurları və layihə təlimatları barədə məlumat vermək
- **Prosedurlar:** Qərarların icrası üçün qəbul edilmiş qayda və prosedurlara əməl etmək
- **Resursların təmin edilməsi:** Büdcə ayırmaqla, digər formada maddi dəstək göstərməklə və ya inzibati xidmətlər vasitəsilə vətəndaş cəmiyyətinin qərarların icrası mərhələsində fəal iştirakına şərait yaradılması
- **Cavabdehlik:** Qərarların icrası ilə əlaqədar meydana çıxan spesifik ehtiyaclarla maraqlanmaq və cavab vermək

Faydalı alətlər və mexanizmlər:

- **Məlumat:**
    - o Layihələrlə və icra olunan qərarlarla əlaqəli ictimai əhəmiyyətli sənədlərə **açıq və azad çatımlılıq**
    - o Əsas sənədlərin və ictimai tədbirlər barədə elanların yerləşdirildiyi **Vebsayt**
    - o Qarşıdan gələn layihə və maliyyələşmə imkanlarını elan edən **E-mail xatırlatmaları**
    - o Suallar və cavablar formasında təqdim olunan və məqsədi praktiki köməklik və yol göstərməkdən ibarət olan məlumatlar vermək üçün onlayn və ya digər kanallar vasitəsilə Tez-tez Soruşulan Suallar (**FAQs)**
    - o Xidmət göstərilməsi üçün açıq şəffaf prosesin təmin edilməsi üçün **ictimai şəkildə elan edilən tender proseduru**
- **Məsləhətləşmə:**
    - o Məlumat vermək və qərarların icrasını QHT-lər və ictimaiyyətlə müzakirə etmək üçün **tədbirlər, konfranslar, forumlar və seminarlar**
- **Dialoq:**
    - o Qərarların icrasına uyğun bilik və qabiliyyətin artırılması üçün **potensialın gücləndirilməsi üzrə seminarlar**
    - o Qərarların icrasına uyğun, satınalma, layihə və maliyyələşmə kimi sahələrlə bağlı spesifik mövzular üzrə QHT-lər və dövlət orqanları üçün **təlim seminarlar**
- **Tərəfdaşlıq:**
    - o Qərarların icrası üçün QHT-lər və dövlət orqanlarından ibarət olmaqla formalaşan strateji tərəfdaşlıq; bu, kiçik pilot tərəfdaşlıq da ola bilər, qərarların icrasına tam şəkildə cavabdeh olan tərəfdaşlıq da

**5. Monitorinq**

Bu mərhələdə QHT-lərin rolu icra edilmiş qərarın nəticələrini dəyərləndirməkdən və nəticələr üzrə monitorinq aparmaqdan ibarətdir. Qərarın/proqramın nəzərdə tutulan məqsədə nail

olmasını təmin etmək üçün səmərəli və şəffaf monitorinq sisteminin olması vacib əhəmiyyət kəsb edir.

QHT-lərin verdiyi töhfələr:

- **Təbliğat:** təşəbbüsün nəticəsinin nəzərdə tutulan benefisiarlara çatıb-çatmadığını və cəmiyyət üçün nəzərdə tutulan nəticələrə nail olub-olmadığını müəyyən etmək üçün monitorinq aparmaq və monitorinqin nəticələrini yaymaq
- **Bilik və məsləhət:** qərarın təsiri barədə sübutlar toplamaq və araşdırma aparmaq; buraya düşüncə mərkəzləri (think-tank) və araşdırma institutları da aiddir
- **Xidmət göstərilməsi:** keyfiyyət, dayanıqlılıq, səmərəlilik baxımından və real nümunələr əsasında proqramın təsirinin monitorinqinin aparılması
- **Nəzarət funksiyası:** qərarın təsirləri üzrə monitorinqin aparılmasında prioritet rol, qarşıya qoyulmuş məqsədlərə nail olunmasını təmin etmək

Dövlət orqanlarının cavabdehlikləri:

- **Məlumat verilməsi:** Qərarın hazırkı vəziyyəti barədə məlumat vermək
- **Cavabdehlik:** QHT-lər və vətəndaş cəmiyyəti tərəfindən qaldırılmış spesifik məsələləri dinləmək və onlara münasibət bildirmək

Faydalı alətlər və mexanizmlər:

- **Məlumat:**
    - Qərarın vəziyyəti barədə **məlumatlara açıq və azad çatımlılıq**
    - Layihənin icrası barədə kazuslar və statistik məlumatlar əldə etmək üçün **sübutların toplanması**
    - Konfranslar və hesabatlar vasitəsilə qərarın və onun təsirinin **qiymətləndirilməsi**
    - Dərs çıxara bilmək üçün müstəqil **araşdırmaların aparılması**
- **Məsləhətləşmə:**
    - Gedişatı izləmək üçün səsvermə, internet sorğular və ya anketlər kimi **əlaqə (Feedback)** mexanizmləri
- **Dialoq:**
    - Təşəbbüslərin monitorinqi və qiymətləndirilməsi ilə məşğul olan QHT-lərdən (həm istifadəçi, həm də xidmət göstərən) ibarət **İşçi qrup və ya komitə**
- **Tərəfdaşlıq:**
    - Təşəbbüslərin monitorinqi və qiymətləndirilməsi üçün strateji tərəfdaşlıq formasında birləşən QHT və dövlət orqanlarından ibarət **İşçi qrup və ya komitə**

**6. Yenidən işlənmə**

Qərarın icrasının dəyərləndirilməsi nəticəsində qazanılmış biliklər və cəmiyyətin artan ehtiyacları çox vaxt qərarın yenidən işlənməsini tələb edir. Bu, ehtiyacları və təşəbbüsləri müəyyənləşdirmək üçün məlumatlara çatımlılıq və dialoq imkanlarına əsaslanmalıdır. Bu cür yenidən işlənmə yeni bir qərar qəbul edilməsi tsiklinin başlamasına imkan verir.

QHT-lərin verdiyi töhfələr:

- **Təbliğat:** mövcud qərarın məhdudiyyətlərini və ya yan təsirlərini göstərməklə istifadəçilərin və ya vətəndaşların ehtiyaclarına cavab vermək üçün qərarın yenilənməsi üçün lobbiçilik etmək

- **Bilik və məsləhət:** mövcud qərarla bağlı boşluqları müəyyən etmək üçün araşdırma və təhlil aparmaq və qərarın yenidən işlənməli olmasını əsaslandırmaq
- **İnnovasiya:** mövcud qərarla bağlı məsələləri həll etmək üçün yeni yanaşmalar hazırlamaq; bu, qərarın yenilənməsinin əsas elementi ola bilər
- **Xidmət göstərilməsi:** mövcud qərarın yenilənməsini tələb edən artan ehtiyacları təsvir etmək üçün çətinliklərin müəyyən edilməsi və sübutların toplanması

Dövlət orqanlarının cavabdehlikləri:

- **Məlumat verilməsi:** qərara yenidən baxılmasının mümkünlüyü barədə və qərar edilməli olan lazımi dəyişikliklər barədə məlumat verilməsi
- **Prosedurlar:** iştirakçılıq üçün aydın, açıq və çatımlı proseslərin təmin olunması
- **Resursların təmin edilməsi:** vətəndaş cəmiyyətinin fəal iştirakına şərait yaratmaq və dəstək göstərmək
- **Cavabdehlik:** QHT-lərin töhfələrinə fikir vermək və onları nəzərə almaq

Faydalı alətlər və mexanizmlər:

- **Məlumat:**
    - Mövcud qərarla bağlı qiymətləndirmələr, araşdırmaların nəticələri və digər əsaslar barədə **məlumatlara açıq və azad çatımlılıq**
- **Məsləhətləşmə:**
    - Dövlət orqanı tərəfindən planlaşdırılan növbəti addımların müəyyən edilməsi üçün **konfrans və ya görüş**
    - Qərarı/layihəni necə davam etdirmək barədə vətəndaş cəmiyyətinin fikirlərinin öyrənilməsi üçün **onlayn məsləhətləşmə**
- **Dialoq:**
    - Qərarın qəbul edildiyi sahədə yeni istiqamətlərin inkişaf etdirilməsinə maraqlı tərəfləri cəlb etmək üçün **seminarlar və müşavirə forumları**. Misal üçün: Dünya kafe (World café), açıq məkan, digər beyin həmləsi metodları
- **Tərəfdaşlıq:**
    - Yenilənmiş qərar layihəsi tövsiyə etmək məqsədilə QHT-lərin digər maraqlı tərəflər və dövlət orqanları ilə birlikdə ekspert qrupu kimi formalaşdırdığı **işçi qrupu və ya komitə**

### IV.iii Vətəndaş iştirakçılığı üçün çoxtərəfli alət və mexanizmlər

Vətəndaş İştirakçılığı üzrə Qabaqcıl Təcrübə Kodeksi üzrə məsləhətləşmələr zamanı bütün Avropa boyu rast gəlinmiş müəyyən alət və ya mexanizmlər var ki, onlar bütün qərar qəbul edilməsi prosesi boyunca iştirakçılığı çoxtərəfli şəkildə dəstəkləyir:

#### 1. E-iştirakçılıq

E-alətlər demokratik təcrübənin təkmilləşdirilməsi və təşkilatlanmış vətəndaş cəmiyyətinin iştirakçılığı üçün böyük potensial imkanlar açır. Onlar təsisatların şəffaflığına, hesabatlılığına və cavabdehliyinə, həmçinin vətəndaşların iştirakçılığının təşviqinə və demokratik prosesin imkanlarının, çatımlılığının və inklüzivliyinin artırılmasına əhəmiyyətli dərəcədə töhfə verə bilər. Bu alətlərin potensialdan tam şəkildə faydalanmaq üçün e-alətlər qərar qəbul edilməsi prosesinin bütün iştirakçıları tərəfindən, o cümlədən bütün səviyyələrdən olan dövlət orqanları və təşkilatlanmış vətəndaş cəmiyyəti tərəfindən inteqrasiya edilməlidir.

#### 2. İştirakçılıq üçün potensialın artırılması

Yerli, regional və milli QHT-lərin siyasi qərarların formalaşdırılmasında, layihələrin hazırlanmasında və xidmət göstərilməsində fəal şəkildə iştirak edə bilməsi üçün onların potensialının və bacarıqlarının inkişaf etdirilməsi əhəmiyyət kəsb edir. Potensialın inkişaf etdirilməsinə QHT-lərin və dövlət orqanlarının iştirakçılıqla bağlı qarşılıqlı rollarının başa düşülməsinin təkmilləşdirilməsi üçün keçirilən təlim seminarlar, həmçinin bir-birinin reallıqlarını başa düşməyi asanlaşdırmaq üçün olan mübadilə proqramları da aid edilə bilər.

**3. QHT-lər və dövlət orqanları arasında əməkdaşlıq üçün strukturlar**

Bir çox ölkələrdə dövlət orqanları ilə QHT-lər arasında münasibətin asanlaşdırılması üçün əlaqələndirici orqanlar yaradılmışdır. Bu cür orqanlara hər bir nazirlikdə vətəndaş cəmiyyəti üzrə əlaqələndirici şəxs və ya yeganə sözçü olan mərkəzi koordinasiya orqanı; çoxsaylı maraqlı tərəflərin komitələri kimi birgə strukturlar, işçi qrupları, ekspert şuraları və digər (daimi, yaxud ad hoc) məşvərətçi orqanlar; və ya resurslarını birləşdirən və ortaq mövqelər formalaşdıran QHT alyansları/koalisiyaları aiddir.

**4. QHT-lər və dövlət orqanları arasında əməkdaşlığa dair çərçivə sənədləri**

Əməkdaşlıq üzrə öhdəliklərin, rolların və məsuliyyətin və prosedurların müəyyən edilməsi üçün bir çox Avropa ölkələrində çərçivə müqavilələri yaradılmışdır. Bu sənədlər münasibətin aydın əsaslarını göstərir və bununla da QHT-lər və dövlət orqanları arasında davam edən dialoqu və qarşılıqlı anlaşmanı asanlaşdırır. Bu sənədlərə parlament və ya hökumətlə ikitərəfli müqavilələr, əməkdaşlıq üzrə dövlət orqanları tərəfindən qənul edilmiş strateji sənədlər və əməkdaşlıq barədə rəsmi proqramlar aiddir.

## V. Vətəndaş İştirakçılığı Matrisi

Münasibəti təsvir etmək və aydınlaşdırmaq üçün aşağıdakı matris siyasi qərarların qəbul edilməsi prosesinin mərhələlərini və onların iştirakçılığın səviyyəsi ilə əlaqəsini açıq şəkildə göstərir. Matris bütün Avropa üzrə mövcud vətəndaş cəmiyyətinin qabaqcıl təcrübələrinə və nümunələrinə əsaslanır və məqsədi fəaliyyəti daha da həvəsləndirməkdən və QHT-lər və dövlət orqanları arasında qarşılıqlı fəaliyyəti gücləndirməkdən ibarətdir.

Qərarların qəbul edilməsi prosesinin (soldan sağa doğru) hər bir mərhələsində QHT iştirakçılığının (aşağıdan yuxarıya doğru) müxtəlif səviyyələri var. Nəzərdə tutulur ki, siyasi qərarların qəbul edilməsi prosesinin mərhələləri Avropada yerlidən tutmuş milliyə qədər istənilən kontekstdə tətbiq oluna bilər. Daha əvvəl də izah edildiyi kimi, iştirakçılığın səviyyələri qərarların qəbul edilməsi prosesinin hər bir məqamında aşağıdan yuxarıya doğru dəyişə bilər və məqsəd ondan ibarətdir ki, təklif olunan alətlər hər bir iştirakçılıq tipinin həyata keçirilməsi üçün vasitələr kimi istifadə olunsun.

Bu matrisdən çox müxtəlif formalarda istifadə edilə bilər. Misal üçün: vətəndaş cəmiyyətinin hər hansı qərarın qəbul edilməsi prosesində iştirakının səviyyəsini müəyyən etmək üçün; prosesin hər hansı xüsusi məqamında QHT-nin iştirakçılığının qiymətləndirilməsi üçün; və yaxud QHT-nin fəaliyyətini planlaşdırması üçün praktiki vəsait kimi. Bu siyahı tükənən deyil və matrisdən daha çox şeylər üçün istifadə oluna bilər.

Matris qərarların qəbul edilməsi prosesində iştirakçılığın qarşılıqlı şəkildə əlaqəli olan elementlərini təsvir edir. Bu nümunə qərarların qəbul edilməsi prosesinin hər bir mərhələsində nəzərdə tutulan iştirakçılıq səviyyəsinə yuxarıda qeyd edilən faydalı alətlər vasitəsilə necə nail oluna biləcəyini göstərir.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Tərəfdaşlıq** | İşçi qrup və ya komitə | Layihənin birgə hazırlanması | Qərarların birgə qəbul edilməsi<br>Qərarların müştərək qaydada qəbul edilməsi | Strateji tərəfdaşlıqlar | İşçi qruplar və ya komitə | İşçi qruplar və ya komitə |
| **Dialoq** | Dinləmələr və ictimai forumlar<br>Vətəndaş forumları və gələcək şuralar<br>Hökumətlə əsas əlaqələndirici şəxs | Dinləmələr və Sual və Cavab panelləri<br>Ekspert seminarları<br>Çoxsaylı maraqlı tərəflərin iştirak etdiyi komitələr və məşvərətçi orqanlar | Açıq plenar və ya komitə sessiyaları | Potensialın gücləndirilməsi üzrə seminarlar<br>Təlim seminarlar | İşçi qruplar və ya komitə | Seminarlar və müşavirə forumları |
| **Məsləhətləşmə** | Petisiya<br>Onlayn məsləhətləşmə və ya digər üsullar | Dinləmələr və Sual və Cavab panelləri<br>Ekspert seminarları<br>Çoxsaylı maraqlı tərəflərin iştirak etdiyi komitələr və məşvərətçi orqanlar | Açıq plenar və ya komitə sessiyaları | Tədbirlər, konfranslar, forumlar, seminarlar | Münasibət bildirmək (Feedback) üçün mexanizmlər | Konfranslar və ya görüşlər<br>Onlayn məsləhətləşmə |
| **Məlumat** | Məlumatlara asan və açıq çatımlılıq<br>Araşdırma<br>Kampaniya və lobbiçilik<br>Əsas sənədlər üçün vebsayt | Siyasi sənədlərə açıq və azad çatımlılıq<br>Əsas sənədlər üçün vebsayt<br>Kampaniya və lobbiçilik<br>İnternet yayımları<br>Araşdırma nəticəsində verilən töhfə | Kampaniya və lobbiçilik | Məlumatlara açıq çatımlılıq<br>Məlumat əldə etmək üçün vebsayt<br>E-mail xatırlatmaları<br>Tez-tez Soruşulan Suallar (FAQ)<br>İctimai tender prosedurları | Məlumatlara açıq çatımlılıq<br>Sübutların toplanması<br>Qiymətləndirmələr<br>Araşdırmalar | Məlumatlara açıq çatımlılıq |
| **İştirakçılıq səviyyələri**<br>**Siyasi qərarların qəbul edilməsi prosesinin** | **Gündəliyin müəyyən olunması** | **Layihənin hazırlanması** | **Qərarın qəbul edilməsi** | **Qərarın icrası** | **Monitorinq** | **Yenidən işlənmə** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **mərhələləri** | | | | | | |